***Novabrın 17-də Naxçıvanın çağdaş ədəbi mühitinin tanınmış nümayəndələrindən biri, şair Əbülfəz Ülvinin 70 yaşı tamam olur. Bu münasibətlə yubilyarı təbrik edir, ona yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.***
***Əbülfəz Ülvinin yaradıcılığından bəzi nümunələri təqdim edirik.***

***"525"***



**Əbülfəz ÜLVİ**

## QALIB

*70 yaşıma*

Yetmişə çatmışam, şükür Rəbbimə,
Sevdamın kökləri dərində qalıb.
Çoxları can atıb düşə qəlbimə,
Qəlbim öz sevdiyi Pərimdə qalıb.

Əməlim kimsəyə "corab" olmayıb,
Məst edən eşq olub, şərab olmayıb,
Ruhum saf meyvə tək xarab olmayıb,
Elə bil, daima sərində qalıb.

Saxta məhəbbət də hərdən görmüşəm,
Dərhal yox söyləyib, sinə gərmişəm,
Bir dəfə saqqalı əldən vermişəm,
Elə o vaxtdan da birində qalıb.

Yaşım çoxalsa da, etməyir zülüm,
Hələ dil-dil ötür sevda bülbülüm,
Bu gün fəxr elədim deyəndə gülüm:
- Hələ cavanlığın yerində qalıb.

Ay Ülvi, bir sirri qoy açım özüm,
Qəlbim qısqancımı istəmir üzüm,
Bir gözəl görəndə ayrılmır gözüm,
Babalı Allahu-Kərimdə qalıb.

## GƏLİR

İl var bahar kimi görünür qışı,
İl də var görürsən qışı sərt gəlir.
Elə bil, ürəyə salırlar xışı,
Sevinci gedəndə, ona dərd gəlir.

Naqis ola bilmir haqq işə həmdəm,
Aqil ona görə qəm eyləyir, qəm,
İş ucu bilməyən "ollamələrdən",
Bolluca gərəksiz məsləhət gəlir.

Bu necə dünyadır, onda azırlar,
Doğruya doğuşdan məzar qazırlar,
Görürsən suçsuza cəza yazırlar,
Suçluya tabaqda bəraət gəlir.

Sevgi qəlbdə olur, pulla alınmır,
Hissdən alovlanır, hisdən qalanmır,
Yer günəş başına nahaq dolanmır,
Ona da sevgidən hərəkət gəlir.

Ülvi, xoş arzular kaş kama yetsin,
İntizar, xoşbəxtlik içində itsin,
Gəlib getməlilər gəlsin və getsin,
Təki, deyilməsin fəlakət gəlir.

## GÖRMÜŞƏM

Mən həyata gör gəlmişəm haçandan,
Çox vəlvələ, çox zəlzələ görmüşəm.
Nə tez-nə gec, gözlərimi açandan,
Bu dünyanı elə belə görmüşəm.

Alçaq özün dağ sanıbdır dik üstdə,
Daz görmüşəm, dava salıb tük üstdə,
Tikan elə tikan qalıb kök üstdə,
Göz aldadan gülü tələ görmüşəm.

Su içmişəm, su, köpüyə dəyməyib,
Can dəyibdir, daş təpiyə dəyməyib,
Diriliyim üç qəpiyə dəyməyib,
Diriliyi ölə-ölə görmüşəm.

Qaçıb ülfət bağladığım dostlarım,
Boğazını yağladığım dostlarım.
Dərdlərinə ağladığım dostları
Dərdlərimə gülə-gülə görmüşəm.

Sökən çoxdur, yox dünyanın tikəni,
Sevməmişəm "bəlkə" adlı ləkəni,
Çox görmüşəm əkiləndə bəlkəni,
Göyərəndə mən "şənbəllə" görmüşəm.

Namərd qonşu tora atıb sədamı,
Qada verən almayıbdır qadamı,
Təsbeh alıb Həccə gedən nadanı,
Qayıdanda "tülkü lələ" görmüşəm.

Çox görmüşəm sonu matəm, nağıl, çox,
Dəyişdirib məni idrak, ağıl çox,
Deməsinlər Ülvi bəyi oğul yox,
Bu vətənə, Xalqa şələ görmüşəm.

## PAYIZ

Payız qoymayıbdır bağlarda halət,
Sarı rəng bir deyil, çox izə düşüb.
Elə qaş-qabağın töküb təbiət,
Sanki borc pul alıb, faizə düşüb.

Ömrü uzanıbdır gecənin, nə qəm,
Az qalır bir gecə yüz il görünsün.
Bəlkə də, qızıla hərisliyindən
Yarpaqlar saralır, qızıl görünsün.

Ağaca dırmanmır daha sarmaşıq,
Özü də mat-məəttəl qalıb özünə,
Elə bil, göylərin gözü qamaşır,
Buludu eynək tək taxır gözünə.

Dağların saçına tökülür ağlar,
Elə bil, fikirdən çöküb, aşacaq.
Bir də insan kimi deyil ki, onlar,
Yenə yaz gələndə cavanlaşacaq.

Şimşək tez-tez açır səmada şırım,
Tez-tez istifadə edir bu fənddən.
Buluda qışqırır sanki, ildırım
Yağıb təmizləsin torpağı dərddən.

Günəş solğun-solğun baxır gör necə,
Sanki soyğunçular onu soyublar.
Ya da oğurlayıb gecə, gizlicə
Yerinə xəlvəti ayı qoyublar.

Bir işə heyrətli qalmışam yalnız,
Sevgi xilaf çıxmır yen, sözünə.
Nə qədər öfkəli olsa da, payız,
Toylar bu fəsili seçir özünə.

Bir də ondan deyil, el ona qarşı
Payız ən gözəllər sayına düşüb.
Çünki vətənimin qələbə marşı,
Elə bu gözəlin payına düşüb.

## GÜLMƏSƏ

Fələk yerə qoymaz fələkliyini,
Təəccüb eyləmə fələk gülməsə.
Mələk tez itirər mələkliyini
Mələk gülüşüylə mələk gülməsə.

Təbəssüm olanda üzdə xar olmaz,
Nisgilə, kədərə Rəbb də yar olmaz.
Hansı ağac olsa, onda bar olmaz,
Onun budağında çiçək gülməsə.

Gərək ovqatlara elə gül əkək,
Baxışlar həyata baxsın gülərək,
Vüsal ağlayacaq, həsrət güləcək
Vüsal həsrət "bəy"dən zirək gülməsə.

Gülüş var intizar onu əvəzlər,
Gülüş var yaradır kinli qərəzlər,
Canım, hər gülüşə gülüş deməzlər,
O gülüş zamanı dilək gülməsə.

Ülvi, gül, gülüşsüz ömrə dağ olur,
İnsanın görkəmi ölmüş tağ olur,
Gözün da gülməsi ağlamaq olur,
Onunla bərabər ürək gülməsə.

## SİNƏMDƏN

Ürək eyləsə də, sinəmdə ah-vah,
Neyləsən, ayrılmaz ani, sinəmdən.
Yumruq boyda ətin qüdrətinə bax,
İdarə eyləyir canı, sinəmdən.

Bəzən sakitliyi tapsa da həblə,
Yenə də döyünür, vurur ədəblə.
Deyirəm Ay aman, bəlkə bu təblə
Sübhə o veribdir danı, sinəmdən?

Hərdən qaş-qabağın tökür birtəhər,
Nə gündüz səngiyir, nə axşam, səhər,
Yerinə etiraz edirsə əgər,
Mükəmməl yer varmı, yəni sinəmdən?

Gülüm, olmayanda fikiri aydın,
Onun çox suçunu sən mənə saydın,
İnan ki, içində sən olmasaydın,
Çıxarıb atardım onu sinəmdən.

Adına min tərif söyləmişəm mən,
Nə arzu, kamı var eyləmişəm mən,
Bilmirəm son vaxtlar neyləmişəm mən,
Saçıma göndərir dəni, Sinəmdən.

Demə o qalxmayıb sinəmə əbəs,
Ordan yer üzünə səs salır ki, səs,
Özünə güvənən heç bir güc, heç kəs,
Qopara bilməsin səni, sinəmdən.